# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin və vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.

# Növbəti qəbul



3 noyabr 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Ağacəkmə aksiyası



8 noyabr 2023-ci il tarixdə Zəfər Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilmişdir. Aksiyada rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri, bir qrup şəhid ailələrinin üzvləri və qazilər tərəfindən xüsusi ayrılmış ərazidə 100 ədəd ağac əkilmişdir.

# Zəfər Günü ərəfəsində şəhid ailələri ziyarət edilmişdir



3 noyabr 2023-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən 8 Noyabr - Zəfər Günü ərəfəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə canından keçmiş şəhid Mustafayev Elməddin Məhəmməd oğlunun ailəsi evlərində ziyarət edilmişdir. Görüşdə 8 Noyabr - Zəfər Günü münasibəti ilə şəhid ailəsi təbrik edilmiş, şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğu, şəhid ailələrinin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığı qeyd edilmiş, ailənin problemləri ilə maraqlanılmış, onlara bayram sovqatı təqdim edilmişdir. Şəhidin ailə üzvləri onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə etmişlər.



* * *

4 noyabr 2023-cü il tarixdə Qəbələ rayon icra hakimiyyətinin rəhbərliyi, idarə və müəssisələrin əməkdaşları tərəfindən 8 Noyabr - Zəfər Günü ərəfəsində şəhid ailələri və qazilərin evlərində ziyarət edilməsi davam etdirilmişdir.





* * *

Qəbələ rayon icra hakimiyyətinin rəhbərliyi, idarə və müəssisələrin əməkdaşları tərəfindən noyabrın 4-də 8 noyabr Zəfər Günü ərəfəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərin ailələri və qazilərin evlərində ziyarəti davam etdirilmiş, onlara bayram sovqatı təqdim olunmuşdur. Ziyarətçilər şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğunu, şəhid ailələrinin, qazilərin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını qeyd etmiş, ailələrin problemləri ilə maraqlanmışlar. Şəhidlərin ailə üzvləri və qazilər onlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

* * *

Qəbələ Rayon İcra Hakimiyyəti rəhbərliyinin və idarə, müəssisələrin nümayəndələri tərəfindən 8 Noyabr - Zəfər Günü ərəfəsində şəhid ailələri və qazilərin evlərində ziyarət edilməsi davam etdirilmiş, onları narahat edən məsələlər öyrənilmiş və həlli nəzarətə götürülmüş, onlara bayram sovqatı təqdim olunmuşdur.

# Şəhidlər xiyabanını ziyarət



8 noyabr 2023-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı Qələbənin ildönümü - 8 noyabr Zəfər Günü münasibətilə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələri Birinci Qarabağ və Vətən müharibəsində şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət edərək, məzarlara və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüşlər. Sonda tədbir iştirakçıları şəhid ailələrinin üzvləri və qazilərlə birgə xatirə şəkli çəkdirilmişlər.

# Lokal xarakterli antiterror əməliyyatında şəhadətə yüksəlmiş Qəbələ rayon şəhidlərinin məzarları ziyarət edilmişdir





Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri tərəfindən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 19-20 sentyabr 2023-cü il tarixlərində Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatında şəhadətə yüksəlmiş Qəbələ rayon Mirzəbəyli kənd sakini Azərbaycan Silahlı Qüvvələrinin mayoru Səmədov Xəyyam Mirazim oğlunun və Qəbələ rayon Tüntül kənd sakini Soltanbəyli Tamerlan İmran oğlunun məzarları ziyarət edilmiş, üzərilərinə gül dəstələri düzülərək, xatirələri anılmış, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.